# Fenomen siyasətçi

Ümummilli liderimiz Heydər Əliyevin ərməğan olaraq qurub xalqımıza təhvil verdiyi müstəqil dövlətimiz Azərbaycanın böyük dövlətçilik tarixinin müasir mərhələsidir. Xalqımız həm zəngin elm, ədəbiyyat, musiqi xəzinəsi yaradan, həm də dövlət qura bilən və öz ölkəsini sevən xalqdır.

Beş minillik dövlətçilik tariximizdə, ulu babalarımızın qurmuş olduğu 40-dan yuxarı dövlətimiz—Manna və Midiya dövlətlərindən tutmuş xanlıqlara, 1918-ci ildəki Azərbaycan Cümhuriyyətinə və vətəndaşı olduğumuz müasir müstəqil Azərbaycan dövlətinə qədər heç biri xarici geosiyasi qüvvələr tərəfindən yaradılmayıb. Əksinə, xalqımızın qurmuş olduğu bu dövlətlərin hər biri siyasi və geosiyasi qüvvələrin müxtəlif məkrli, iyrənc, amansız təxribatlarına, ideoloji müharibə və hərbi təcavüzlərinə, təzyiqlərinə məruz qalıblar.

1918-ci ildə Xalq Cümhuriyyətinin yaradıcıları—Fətəli xan Xoyski, Məmməd Əmin Rəsulzadə və digər böyük şəxsiyyətlərimizin, vətənpərvər insanlarımızın zəhməti, fədakarlığı danılmaz gerçəklikdir. Müasir müstəqil dövlətimizin qurucusu isə zəmanəmizin böyük siyasi xadimi Heydər Əliyevdir.

Umummilli liderimiz Heydər Əliyevin siyasəti o qədər düşünülmüş və düzgündür ki, müsbət nəticələrini hər bir tarixi addımda özünü büruzə verir. Bu xətt həm beynəlxalq qanunlara uyğundur, həm də geosiyasi postulatlara cavab verir. Ölkəmiz heç bir geosiyasi gücün təsiri altına keçmədən müstəqil siyasət yeridir.

Davamlı inkişaf edən Azərbaycan Respublikası regionda və dünyada güc mərkəzinə çevrilib. Geosiyasi xəritədə hər zaman yeni konturlar, sərhədlər cızmağa cəhd edən böyük güc mərkəzləri ilə əməkdaşlıq qurmaq, onlarla üz-üzə yox, yanaşı olmaq, münasibətləri müsbət məcrada formalaşdırmaq, mənfi təsirləri aradan qaldırmaq, xalqımızın və dövlətimizin uzunmüddətli firavan həyatını təmin etmək, dünyada mədəniyyətlərarası dialoqu təşkil etmək, beynəlxalq qanunlara əsaslanaraq strateji əlaqələri müttəfiqlik və dostluq səviyyəsinə qaldıraraq dünyamızı müharibəsiz, daha təhlükəsiz etmək Azərbaycanın dövlət siyasətinin, ulu öndərin müəllifi olduğu azərbaycançılıq ideologiyasının əsas aparıcı—ana xəttini təşkil edir.

Ümummilli lider Heydər Əliyev müasir dövlətimizin müstəqilliyini bərpa edib gücləndirdi. Ölkənin daxili və xarici siyasətinin prioritetlərini müəyyən etdi. İqtisadi əsaslarımızı müəyyən edərək hərtərəfli dinamik inkişafa zəmin yaratdı. Ulu öndərimiz şəxsiyyəti, zəngin bilik və təcrübəsi, bəsirəti ilə xalqımızın birliyini, vəhdətini yaradaraq onun sevincini yaşatdı. Heydər Əliyev tək Azərbaycan Respublikasının yox, dünya azərbaycanlılarını bir məslək uğrunda birləşdirən ideologiyanı—azərbaycançılıq ideologiyasını yaratdı.

Bütün bunların nəticəsində Azərbaycan müasir inkişaf mərhələsinə çatmışdır. BMT-nin üzvü olan 150 ölkənin bizi dəstəkləməsi, Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməyimiz, ən böyük beynəlxalq təşkilata rəhbərlik etməyimiz, iqtisadi tərəqqimiz, ordumuzun, müdafiə sənayemizin inkişafı, müxtəlif beynəlxalq siyasi, iqtisadi, mədəni, idman tədbirlərinə ev sahibliyi etməyimiz, kosmik ölkəyə çevrilməyimiz—geosiyasi aləmin böyük "şahmat oyunu"nda ölkəmizə qarşı olan dövlətləri və onların pərdə arxasındakı yönəldicilərini "mat" qoyub. Bütün bu uğurlarımız Heydər Əliyev siyasəti nəticəsində mümkün olmuşdur.

Ulu öndərimiz Heydər Əliyev bu qələbələrə asanlıqla nail olmamışdır. O, 1969-cu ildən 2003-cü ilə qədər xalqımız üçün bir ordu qədər iş görmüşdür.

Qurduğumuz dövlətlərin tarixini, onların qəhrəmanlıqla apardıqları döyüşləri öyrəndikcə və məğlub olma, süqut səbəblərini araşdırıb mahiyyətinə vardıqca, Heydər Əliyevin də həmin ənənəvi geosiyasi təzyiqlərə qarşı hamının gözü qarşısında apardığı çox gərgin mübarizəsini, yaşadığı ağır günlərini xatırladıqca, ulu öndərin timsalında tarixi dövlətlərimizi qurmuş hökmdarlarımızın da yaşadıqları bütün çətinliklərini, məşəqqətlərini əyani şəkildə təsəvvür etmək olur.

Xarici məkrli qüvvələrin məqsədləri dövlətimizi yox etmək idi. Ölkəni çaxnaşmaya salaraq düşmən qruplaşmalar vəziyyətinə çatdırmışdılar, vətəndaş müharibəsi başlamışdı. Xəzinə boş, iqtisadiyyat zəif, xaricdən kömək yox. Vətənimiz çökmək həddində idi. Xalqımız belə ağır məqamda öz müdrik oğlu, fenomen şəxsiyyət Heydər Əliyevi hakimiyyətə dəvət etdi. Ulu öndər hakimiyyətə gələndən sonra da bütün bu ideoloji müharibənin təxribat və dağıdıcı həmlələri daha da aktivləşdi. Bu dövrdə ideoloji müharibənin silahı olan dövlət çevrilişi cəhdləri, sui-qəsdlər də tam gücü ilə işə düşdü.

Ulu öndərimiz ölkənin ağır vəziyyətində gecə ilə xalqa müraciət etdi və hər kəsi səfərbər edə bildi. Bu, qəhrəmanlara xas xüsusiyyətdir—ən ağır vaxtlarda belə özünü itirməmək, hansısa xarici dövlətlərin köməyinə sığınmamaq və xalqın birliyini təşkil edib dövlətini, vətənini qorumaq.

Heydər Əliyev təxribatlar, xəyanətlər və sui-qəsd cəhdlərinə qarşı efirdə demişdi: "Mənim məqsədim xalqıma, vətənimə, torpağıma bu ağır vaxtda kömək etməkdir. Heç kəs məni bu yoldan döndərə bilməz. Əgər hər hansı bir xain, terrorçu gülləsi sui-qəsdlə məni öldürərsə, mənim özüm də, övladlarım da bu yolda qurban getməyə hazırıq".

Belə ağır vəziyyətdə, bütün amansız təzyiqlərə baxmayaraq, ulu öndərimiz Heydər Əliyevin qalib gəlməsi, sözsüz ki, onun şəxsi keyfiyyətləri ilə yanaşı, xarizması və bəsirəti ilə, Tanrının ona daim kömək etməsi ilə mümkün olmuşdur. Çünki o, haqq yolunda idi.

Ümummilli liderimizin bizə belə bir tapşırığı var: "Dövlət istiqlaliyyətinin əldə edilməsi Azərbaycan xalqı üçün tarixi hadisədir və bizim vəzifəmiz, məqsədimiz istiqlaliyyətimizi, beynəlxalq mövqelərimizi hər vasitə ilə möhkəmləndirməkdən ibarətdir".

Ulu öndərimiz bizə müstəqilliyimizi, istiqlalımızı "hər vasitə ilə" möhkəmləndirməyi, vətən qarşısında qorumağı bir vəzifə olaraq tapşırmışdır. Çünki o qurduğu dövlətə qarşı edilən təzyiqləri, hücumları hər gün görürdü və buna qarşı davamlı mübarizə aparırdı.

Azərbaycan inkişaf etdikcə ona qarşı hərbi müharibədən daha qorxulu və dağıdıcı olan ideoloji müharibə də güclənir. Bu sonsuz mübarizədə qalib olmağımızı davamlı etmək üçün məncə hansısa bir qurum tərəfindən təşkil olunan və həyata keçirilən ideoloji müdafiə sistemimiz olmalıdır.

Azərbaycan Prezidenti İlham Əliyev ulu öndərin müəyyənləşdirdiyi siyasəti uğurla davam etdirərək ölkəmizin dinamik inkişafına nail olub. Xalqını, Vətənini sevən bir rəhbər kimi bu yolda çəkdiyi əziyyətlərə, etdiyiniz fədakarlıqlara görə, Azərbaycan vətəndaşı kimi dövlət başçısına sonsuz təşəkkürlərim vardır.

Hamı kimi mən də inanıram ki, Azərbaycan inkişaf etmiş dövlətlər səviyyəsinə Heydər Əliyev strategiyası ilə çatacaq və ölkəmizə qarşı hər hansı bir hücum olarsa, silahlı qüvvələrimiz hər an onun qarşısını almağa qadirdi.

İnanıram ki, ulu öndərin müəllifi olduğu azərbaycançılıq ideologiyasını hər bir azərbaycanlı əxz edəcək, təbliğ edəcək, öz məsləkinə çevirəcək, bu əqidəylə fəaliyyət göstərəcək və bizim dövlətimiz əbədiyyətə qədər yaşayacaqdır.

**Tahir ƏLƏKBƏROV.**